# Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi BBC radiosuna müsahibə verib

**Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BBC radiosuna müsahibə verib.**



AZƏRTAC xəbər verir ki, Elçin Əmirbəyov müsahibəsində ötən ilin sentyabrında Azərbaycanın Qarabağ və ətraf rayonlarının Ermənistan tərəfindən qanunsuz işğalına son qoyduğunu deyib. O bildirib ki, sülh üçün ən böyük maneə, yəni Ermənistanın Azərbaycan ərazisində qeyri-qanuni hərbi mövcudluğu məsələsi öz həllini tapıb. E.Əmirbəyov bununla da iki ölkə arasında sülh sazişi bağlamaq üçün real və unikal şansların olduğuna inandığını deyib. O bildirib ki, iki ölkə heç vaxt sülhə bu qədər yaxın olmayıb.

E.Əmirbəyov Azərbaycan və Ermənistan arasında delimitasiya prosesinin başlamağı haqqında da məlumat verib. Onun sözlərinə görə, bu mövzuda vacib məqamlardan biri də odur ki, bu qərar heç bir üçüncü kənar tərəfin iştirakı olmadan Ermənistan və Azərbaycanın birbaşa ikitərəfli iştirakı nəticəsində qəbul edilib.

"Ermənistan ilk dəfə olaraq torpaqlarımızın işğalına hərbi əməliyyatlar nəticəsində deyil, diplomatik yollarla son qoyub. Bu, Ermənistanın və onun Qərb havadarlarının irəli sürdüyü Azərbaycanın sülh prosesində qalan çətinlikləri güc yolu ilə həll etmək istədiyi kimi iddialarının əsassız və yalan olduğunu sübut etdi. Biz sülhün tərəfdarıyıq", - deyə Elçin Əmirbəyov qeyd edib.

O, iki ölkə arasında mövcud olan bəzi məsələlərin həll edilməsinin də önəminə toxunub. Ermənistanın hazırkı milli qanunvericiliyində, o cümlədən konstitusiyasında Qarabağın Ermənistanın bir hissəsi kimi göstərildiyini, bunun da açıq şəkildə Azərbaycana qarşı ərazi iddiası olduğunu deyib: "Ermənistanın hazırkı milli qanunvericiliyi, o cümlədən onun konstitusiyasında Qarabağ Ermənistan ərazisi kimi göstərilir. Deməli, bu, doğrudan da, Azərbaycana qarşı ərazi iddiasıdır. İlk növbədə, hesab edirəm ki, əgər biz Ermənistan və Azərbaycan arasında sülh sazişinin əsası kimi ərazi bütövlüyünün qarşılıqlı tanınmasına ciddi yanaşırıqsa, Ermənistan bu məsələni həll etməlidir. Xüsusən də Ermənistanın baş naziri Nikol Paşinyanın bir çox hallarda Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını təsdiqləməsindən sonra…"

Elçin Əmirbəyov Azərbaycanın mövcud fikir ayrılıqlarının sülh yolu ilə həllinə tam sadiqliyini bir daha təsdiqləyib. Azərbaycanın iki ölkə arasında danışıqların intensivləşdirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

"Biz, həmçinin Ermənistanı əmin etmək istərdik ki, sülh sazişini təşkil edən əsas prinsiplər, yəni bir-birinin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının tanınması həm də Azərbaycanın üzərinə götürdüyü öhdəlikdir", - deyə E.Əmirbəyov vurğulayıb.

O, Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsinin Ermənistan tərəfindən blokadada olduğunu qeyd edib: "Bu onu göstərir ki, üç il yarım əvvəl Ermənistanın baş naziri N.Paşinyan İkinci Qarabağ müharibəsinin başa çatması nəticəsində üçtərəfli Bəyannaməni imzalamaqla götürdüyü öhdəlikdən açıq şəkildə kənara çıxır", - deyə Elçin Əmirbəyov bildirib.

O, davam edən sülh prosesini bəzi xarici dövlətlər tərəfindən potensial olaraq qeyri-sabitləşdirmək, sülh perspektivlərini riskə atmaq və Cənubi Qafqazı geosiyasi rəqabət meydanına çevirmək üçün cəhdlər olduğunu da vurğulayıb: "Konkret olaraq, mən birtərəfli yardım və silahların çatdırılması yolu ilə Ermənistanın hərbi potensialını gücləndirmək üçün bəzi Qərb dövlətlərinin yeni təşəbbüslərini nəzərdə tuturam. Düşünürəm ki, bu, qeyri-şəffaf üsuldur. Bunlar sülh perspektivləri üçün yaxşı deyil, həm də təhlükəsizlik baxımından bəzi mənfi nəticələr törədə bilər".

Azərbaycan.- 2024.- 25 aprel, № 83.- S.16.